## Unutsaq, unudularıq

# Muğam bilicisi, ustad ifaçı

**Beynəlxalq Muğam Mərkəzində "Nadir muğam ifaçıları" layihəsi çərçivəsində muğam sənətinin dərin bilicisi və sevilən xanəndə, Xalq artisti Hacıbaba Hüseynovun xatirəsi ehtiramla anılıb.**





BMM-nin direktoru, Əməkdar artist Sahib Paşazadə rəhbərlik etdiyi sənət məbədində mütəmadi olaraq ustad xanəndələrin, muğam ifaçılarının xatirəsinə həsr olunan tədbirlərin keçirildiyini diqqətə çatdırıb. O deyib ki, Azərbaycan muğam və qəzəl sənətinə əvəzsiz töhfə verənlərdən biri də Hacıbaba Hüseynov olub. Görkəmli sənətkarın yaratdığı çoxsaylı təsniflər musiqi irsinə daxil olub və muğam ifaçılığında geniş yayılıb: "Hacıbaba Hüseynov xalq yaradıcılığına da böyük diqqət verib. Azərbaycanın müxtəlif bölgələrində, habelə Türkiyə və İraqda oxunan xalq yaradıcılıq nümunələrini təsniflərdə istifadə edib, beləliklə, xalqdan topladığını yenilənmiş şəkildə xalqa qaytararaq bu sənət əsərlərinin tanınmasına və sevilməsinə zəmin yaradıb".

Mərasimdə Əməkdar incəsənət xadimi, xanəndə Aqil Məlikov, Əməkdar artist Mirnazim Əsədullayev Hacıbaba Hüseynovla bağlı xatirələrini bölüşüblər. Bildirilib ki, Azərbaycan muğam məktəbinin təbliği və inkişafında Hacıbaba Hüseynovun özünəməxsus yeri var. "Rast" muğamının "Üşşaq", "Hüseyni", "Novruzi ravəndə", digər muğamlarda olan "Şah Xətai" şöbələrinin ilk ifaçısı o olub. Hacıbaba Hüseynovun təşəbbüsü ilə "Bayatı Şiraz" muğamının "Dilrüba" şöbəsi dərsliyə əlavə olunub.

Natiqlər, həmçinin gənc muğam ifaçılarının yetişməsi istiqamətində bir müəllim kimi Hacıbaba Hüseynovun yorulmaz qeyd ediblər.

Xalq artisti Teyyub Aslanov, Əməkdar incəsənət xadimi Aqil Məlikov, BMM-nin solistləri Hüseyn Məlikov, Məmməd Nəcəfov, xanəndə Elbrus Niftəliyev 105 yaşlı unudulmaz sənətkarın repertuarından rəngarəng ifalar təqdim edib, könülləri oxşayıblar. Xanəndələri tarzən Rövşən Qurbanovun rəhbərliyi ilə BMM-nin solistlərindən ibarət instrumental heyət, Əməkdar artist Əliağa Sədiyevin rəhbərliyi ilə "Xarıbülbül" muğam qrupu və Əməkdar artist Emil Əfrasiyab müşayiət ediblər.

*XQ*